### İstərik

Biz türk ellərinə həyat istərik,
Həyat öz yerində, nicat istərik.

Nicat öz yerində, nicatla birgə
İttifaq istərik, abad istərik.

Abadsız olarmı elmü ixtira,
Yenilik, pozulmaz bünyad istərik!

Aləmdə eşq olar adəmə körpü,
Biz adəm qövmünü azad istərik!

İstərik Adəmdən, Yafəsdən bəri,
Biz türkük, aləmə qanad istərik!

Qanadsız deyildir, hətta qoşadır,
Kainat atına səbat istərik!

Qoymaz öz halına bəni-insanı,
Şeytana qarşı biz cahad istərik!

Keçmişin köksünü qanlı görmüşük,
Biz tarix bağrını bidad istərik!

Azad istəyirik günəş sayəsin,
Kainat yurduna xeyrat istərik!

### Ana Türküstan

Ah, ana Türküstan, ana Türküstan,
Bu sonsuz bağrında sökülməzmi dan?
Dartınıb açılar dərdli çiçəklər,
Pərişan bülbüllər haçan cəh-cəhlər?
Haçan ay nazilib dönəcək geri?
Haçan hilal kimi dolacaq yeri,
Qıy vuran durnalar çıxararmı səs?
Sınarmı zəfəran ətirli qəfəs?
Yanarmı dağların-daşların ləbi?
Kükrəyib axarmı bulağın təbi?
Qığılcım qoparar Qıratın nalı,
Bəs haçan dəyişər göylərin halı?
Haçan bir olacaq bölünən ölkə?
Birləşib uçacaq durnalar göydə?
Ah, ana Türküstan, ana Türküstan,
Quşlar nəğməsiylə dolsun asiman!

### Dilək

*Pəhləvan*
*Dursun Əli Məhəmmədin sözü*

Ana Özbəkistan, hər bir oğlunun
Mindiyi Qıratla Bayçibar olsun,
Qüdrəti yar olsun bəy Koroğlunun,
Alpamış tək sədaqəti var olsun!

Tamaşa-toy olsun hər bir guşəndə,
Hər günün bayram tək şadiman olsun,
Ana Özbəkistan, sən tək gülşəndə
Pəlvan oğulların pasiban olsun,
Pəlvan oğulların pəhləvan olsun!

***

Bir quş uçur səmada,
Uçur özünə vurğun.
Sevinir o biçarə,
Oxuyur yorğun-yorğun.

Qəlbinə dolur vüqar:
“Gətirəcəyəm bahar”.
Bilmir ki bu yurdun öz
Bənövşəsi, quşu var.

### Məni

Əgər Fərhad kimi doğulmasam,
Yox et məni.
Əgər Tahir kimi axmasam,
Gəl etmə azad məni.
Şirin, Zöhrə olsan, bilməsəm,
Sat məni – sat məni!
Kor olsam, görməsəm,
At məni - oyat məni!

### İlıq gecələrdə

İtlər hürüşər,
Eşşək anqırar.
Nə karvan keçər,
Nə zəlzələ var.
Qəribədir...
Bu elin güclüsü pusub duraraq,
Gördü ötüb keçir beş-altı uşaq.

Qışlaq yuxudadır,
(məlallı əhval) –
Elsiz qalan iri məmləkət misal.
Bu yerin güclüsü harda yürüdü?
Eşşək anqırır!
İtlər hürüdü!

Hara getmiş özü
Tomiris, Şirak,
Səfərdə öldümü



Alpamış, Teymur,
Göyə kim bağladı Uluğ Bəyi?
Şah! aş! Rux! Harda?
Qayıdar Kabildən Babur?!

Heyran qalan
şələ qulaq kiçikmi,
evə dolan atmı, xoruzmu?
Kimdir?
Sərətan olsa həm nə üçündür?
Çarəsiz əriklər titrədi tir-tir!

### Düşdü

Dünya məndən yaman uzağa düşdü,
Axdı göz yaşlarım, torpağa düşdü.



Çünki bir gün ona bağladım könül,
Sonra kəsib atdım, bıçağa düşdü.

Uzaqdan olsa da eylədi qovğa,
Dostlar şeytan nəfsi vurmağa düşdü.

Bu üzdən bəzən qəlb dayandı susqun,
Qovğa dənizində qırağa düşdü.

Özümə gətirdi pirimin əli
Əvvəl dost gümanı qarmağa düşdü.

Dünyaya meylimdəm düşmüşəm halsız,
Atam bu dərd ilə yatağa düşdü.

Özümə dedim ki Yoldaşı da gör,
Nəfsi yox, dünyadan fərağa düşdü.

### Səni soruşuram

Qapınıza qəlbimin
Tellərini bağladım,
Mən bir dünya gözəldən
Səni seçdim, ağladım.

Səni seçdim, gözümdə
Halqa-halqa yaş oldu,
Bu vəfasız dünyanın
Bağrı mənə daş oldu.

Sən ulduzsan əl yetməz,
Aşiq oldum, gözəlim.
İndi sənin yerinə
Nəğmə qaldı, gözəlim.

Bir nəğmə ki, qəlbimi
Şad eləməz, qaraldar.
Desəm ahdır, deməsəm
Vərəm edər, saraldar.

Qapınıza qəlbimin
Tellərini bağladım,
Mən bir dünya gözəldən
Səni seçdim, ağladım.

Qapınızın toxmağı
Qızıl imiş, bilindi.
Əlim çatmır çalmağa,
Bildim, bağrım dəlindi.

Dilim bağrım içində
Dərdini sezib yatar.
Nəğmə edib qəlbimi
Gözyaşıma yaş qatar.

Gözlərimdə əylənən
Halqa-halqa yaş oldu,
Bu vəfasız dünyanın
Bağrı mənə daş oldu.

### Vətən

Eşqimin hər anı ömründən nəfəs,
Nəğmələrin canı sənin nurundan.
Sənə fəda olsam, ollam müqəddəs
Günahım tökülər suçlu ömrümdən.

Çəkdiyin hər ahın səbəbkarı biz,
Gördüyün hər şadlıq bizə ətadır.
Qəflətdə qalmasın yatanlarımız,
Oyada bilməsək, ömr xətadır!

Səni vəsf eyləyər hər misram, şeirim,
İşinə yarasa sürurum mənim.
Sevincin, güvəncin, şəfqətin, mehrin,
Sənin laylaların qürurum mənim.

### Qadın

Ey qadın! Aləmin yiyəsi!
Heyrətdə heyrətlərg
Üzündə sayəsi!
Dayənin aləmi!
Aləmin dayəsi!
Zərrələrə bölünən qüdrət!
Qüdrətlərə bölünən zərrə!
Ən gözəl duyğular baxışında fəqət,
Ən parlaq xəyallar min kərrə!
Mənim başım əyilsə kəmdir!
Azın başı əyilsə kəmdir!
Çoxun başı əyilsə kəmdir!!!
Mən dəli-divanə bəndəsi.
Sevirəm deməyim aciz kəlamdır,
Mən sənin qulunam,
Ey mehr ilahəsi!
Sənə sığınmamaq böyük sitəmdir.
Həyatın həyatbəxş sonsuz müjdəsi.
Donduran ayazlar deyil, qarşında
Uçub duran qazlar,
Ağquşlar,
Rəhmin kimi ılıq günlər,
ılıq günlər aləmə!
Saralan yarpaqlar qarşında
Mavi alova!
Saçlarını daramaqdan
Ulduzlar saçılar səma tərəfə.
Gahi yarım,
Gah dolu,
Ayın məhbubəsi,
Özü sonsuz mehrə təşnə,
Ey mehr məbudəsi!
Azın başı əyilsə kəmdir!
Çoxun başı əyilsə kəmdir!
Sənə yurdum! - dedim
Baxışından
Yıxılmadan yürüdüm,
Lazım olsa ayaqsız həm,
Gözsüz həm!
İraq-iraq, dilsiz olsaydım əgər,
Nəğmələr qoşardım sənə sözsüz həm!

Yoldaş Eşbək

Türküstan.- 2022.- 27 dekabr-9 yanvar.- S.4.